YANVAR-2023

TƏHLİL

# YENI GEOSIYASI PROSESLƏR FONUNDA ÖNƏMİ ARTAN HƏRBİ GÜC AMİLİ

Hərbi güc amilinin aktuallaşmasını son illər beynəlxalq münasibətlərdə cərəyan edən əsas tendensiyalardan biri kimi qəbul etmək olar. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra bir çox dövlətlər hərbi büdcələrinin, ordularının döyüş qabiliyyətlərinin artırılmasını, silah arsenalının yenilənməsini təhlükəsizlik-müdafiə siyasətlərinin vacib prioritetinə çeviriblər. Hətta son səksən ildə, yəni İkinci Dünya Müharibəsindən sonra pasifist siyasət həyata keçirən, təhlükəsizliklərini daha çox kollektiv və ikitərəfli əsasda təmin etməyə çalışan Almaniya, Yaponiya kimi dövlətlər də hərbi xərclərini köklü olaraq artırmaqla bağlı qərarlar qəbul edirlər. Onu da qeyd edək ki, hərbi-təhlükəsizlik mühitində baş verən yeni tendensiyaları Ukraynada başlanan müharibədən əvvəl də müşahidə etmək olurdu. Sadəcə olaraq, bu müharibə son illərdə dövlətlərin hərbi güclərini artırmaq siyasətinə ciddi təkan verdi.

Rusiya-Ukrayna müharibəsi başlamazdan əvvəl dövlətlərin müdafiə siyasətində baş verən dəyişiklikləri həm ümumi şəkildə, həm də ayrı-ayrı ölkələrin nümunəsində görmək mümkündür. Məsələn, 2022-ci ilin aprelində Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) açıqladığı hesablamalara görə, dünya üzrə hərbi xərclər 2021-ci ildə 0.7 % artaraq tarixdə ilk dəfə iki trilyon dolları keçmişdir.[1] Eyni zamanda, SIPRI-nin məlumatından o da aydın olur ki, qlobal hərbi xərclərin təxminən 62 %-i hərbi büdcələri ən böyük olan beş ölkənin (ABŞ, Çin, Hindistan, Böyük Britaniya, Rusiya) payına düşür.

Son illər müşahidə olunan pandemiya, inflyasiya, enerji qiymətlərinin kəskin artması dövlətlərin hərbi büdcələrini artırmaq siyasətinə təsir etsə də, ümumi tendensiyanı dəyişdirməmişdir. 2013-2021-ci illərdə dünya ölkələri hərbi xərclərini 21.3 % artırmışdır.[2] Baş ofisi Amsterdamda yerləşən Transmilli İnstitutun məlumatına görə, dünyanın ən zəngin ölkələri bu illər ərzində hərbi xərclərə ekoloji problemlərə ayrılan vəsaitdən 30 dəfə artıq vəsait ayırıb. Dünyanın ən böyük siyasi, iqtisadi, hərbi gücü olan Birləşmiş Ştatlar da 2022-2023-cü illərdə hərbi büdcəsini artıran ölkələrdən hesab olunur. Belə ki, 2022-ci ildə ölkənin hərbi büdcəsi 770 milyard dollar idisə, 2023-cü ildə bu rəqəm 858 milyard dollar təşkil edir. Artan hərbi büdcənin əhəmiyyətli hissəsinin son illərdə zəifləyən silah istehsalına, silah arsenalının modernləşməsinə, yeni silah növlərinin hazırlanmasına xərclənəcəyi gözlənilir. ABŞ ilə bağlı bir vacib məqamı da əlavə etmək istərdik ki, 2012-2021-ci illərdə hərbi araşdırmalara və inkişafa xərclənən vəsaitlər 24 % artıb.[3] Bir sıra tədqiqatçıların fikrincə, hərbi tədqiqatlara xərclənən vəsaitlərin bu qədər artırılması ABŞ-ın yeni nəsil silah texnologiyaları əldə etmək istəyi ilə bağlıdır.

Sayına görə dünyanın ən böyük ordusuna malik olan Çin son illərdə hərbi büdcəsini davamlı olaraq artıran ölkələrdən hesab olunur. Ümumiyyətlə, son 27 ildə ardıcıl olaraq hərbi büdcəsini artıran Çin hərbi

[1] https://www.sipri.org/media/press-release/2022/world-military-expenditure-passes-2-trillion-first-time

[2] https://www.euronews.com/green/2022/11/18/worlds-richest-nations-spend-30-times-more-on-armed-forces-than-climate-finance

[3] https://english.news.cn/northamerica/20220426/8236b816d06e42d9b1bdb7aa93506df2/c.html

Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan, Phone: (+994 12) 596-82-39, (+994 12) 596-82-41, E-mail: info@aircenter.az
www.aircenter.az

xərclərinə görə Birləşmiş Ştatlardan sonra ikinci sırada dayanır. Qeyd edək ki, Çin son 7-8 ildə hərbi gücünü modernləşdirmək və artırmaq istiqamətində əvvəlki illərlə müqayisədə xeyli işlər görüb. Çin hakimiyyətinin ölkənin hərbi gücünü artırmağa xidmət edən addımlarına Xalq Azadlıq Ordusunun bütün qoşun növlərində aparılan islahatları, silahların, o cümlədən də strateji hücum silahlarının artırılmasını, modernləşdirilməsini, hərbi sənayenin inkişaf etdirilməsini aid etmək olar. Xüsusilə, hərbi-dəniz və hərbi-hava qüvvələrinin genişləndirilməsi, döyüş qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silahlarla təchiz olunması effektiv həyata keçirilib. Hərbi-dəniz qüvvələrində həm xidməti personalın, həm də döyüş gəmilərinin artırılması sayəsində Çin dünyanın ən böyük hərbi-dəniz güclərindən birinə çevrilib. Çin nüvə başlıqları da daxil olmaqla, Sakit Okeanda ABŞ hərbi gəmilərini vura biləcək gəmi əleyhinə ballistik raketlərini modernləşdirilib. Çinə həm qlobal, həm də regional hərbi müstəvidə böyük üstünlük verən məqamlardan biri də Xalq Azadlıq Ordusunun çoxsaylı yaxın və orta mənzilli raketlərə malik olmasıdır. Belə ki, ABŞ və Rusiyanın ikitərəfli müqaviləyə əsasən məhdudlaşdırdığı yaxın və orta mənzilli raketləri durmadan artıran Pekin bununla dünyanın ən böyük hərbi gücləri arasında pariteti öz xeyrinə dəyişmək üçün ciddi imkanlar əldə edib. Eyni zamanda, verilən məlumatlara görə, Xalq Azadlıq Ordusu səs sürətindən dəfələrlə sürətli hərəkət edə bilən və buna görə də düşmənlərin müdafiəsi üçün daha çətin olan hipersəs raketlərini sınaqlarını artıq keçirib. Qeyd edək ki, hipersəs raketlərinə malik olan digər ölkələr ABŞ və Rusiyadır.

Son illərdə hərbi büdcəsini artıran dövlətlərdən biri də dünyanın ikinci güclü ordusu hesab edilən Rusiyadır. 2016-2019-cu illərdə enerji qiymətlərinin düşməsi və sanksiyalar səbəbindən hərbi xərclərini azaldan Rusiya son üç ildə hərbi büdcəsini yenidən artırmağa üstünlük verib. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi başlamazdan əvvəl, 2021-ci ildə ölkənin hərbi xərcləri 2.9 % artırılaraq 65.9 milyard dollara çatdırılıb. Bir sıra hərbi ekspertlər 2021-ci ildə artan hərbi büdcəni həm də 2022-ci ildə başlayacaq müharibəyə hazırlıq kimi də dəyərləndirirlər. Qeyd edək ki, Rusiyanın hərbi büdcəsi 2022-ci ildə 68.3 milyard, 2023-cü ildə isə daha 6 % artırılaraq 72.7 milyard dollar nəzərdə tutulub.

2022-ci ilin fevralın 27-də Almaniya hökuməti qarşıdakı illərdə hərbi xərclərinə əlavə olaraq 100 milyard avro dəyərində vəsait ayıracağını bəyan etməklə, Rusiya-Ukrayna müharibəsinə hərbi-siyasi baxımdan ən tez reaksiya verən ölkələrdən oldu. Onu da qeyd edək ki, Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən əvvəl də Almaniya hərbi büdcəsini tədricən artırmaq siyasəti həyata keçirirdi. Bu baxımdan 2021-ci ildə qəbul edilən və əvvəlki illə müqayisədə 3.2 % artırılaraq 51.4 milyon avro təşkil edən hərbi büdcəni qeyd etmək olar.[4] Bir sıra təhlilçilər almanların hərbi xərclərini xeyli artırmasını həm də ölkənin Şimali Atlantika bloku daxilində hərbi xərclərin Ümumi Daxili Məhsulun 2 %-i səviyyəsinə qaldırmaqla bağlı öhdəliyini həyata keçirmək istəyi ilə əlaqələndirirlər. Bununla belə, alman hökumətinin 2025-ci ilə kimi hərbi xərcləri Ümumi Daxili Məhsulun 2 %-i səviyyəsinə qaldıracağı ehtimalı azdır.[5] Qeyd edək ki, Almaniyanın artan hərbi xərclərinin əsas hədəfləri ilk növbədə silah arsenalının yenilənməsi və ordunun döyüş qabiliyyətinin artırılmasıdır. Almaniya həmçinin davam edən müharibədə Ukraynaya hərbi baxımdan yardım edən üçüncü böyük ölkədir. Yeri gəlmişkən, Ukrayna da Rusiyanın Krımı ilhaqından sonra hərbi büdcəsini 72 % artırıb.[6] Bir vacib məqam da vurğulanmalıdır ki, son illərdə yalnız Almaniya deyil, digər Avropa ölkələrinin də hərbi büdcəsində artım müşahidə edilir. Və bu artım Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra xeyli intensivləşib. 2023-cü ildə bir sıra Avropa və yaxud NATO ölkələrinin hərbi xərclərində ümumilikdə 18 % artım gözlənilir.[7]

---

[4] https://www.dw.com/en/germany-commits-100-billion-to-defense-spending/a-60933724

[5] https://www.grid.news/story/global/2022/12/20/why-germany-and-japan-are-rebuilding-their-military-power-8-decades-after-world-war-ii/

[6] https://www.dw.com/en/world-military-spending-hits-all-time-high-report-finds/a-61577840#:~:text=Russia%20and%20Ukraine%20saw%20boost&text=Ukraine's%20military%20spending%20has%20risen,the%20country's%20GDP%2C%20in%202021.

[7] https://rtvi.com/news/rashody-10-vedushhih-stran-nato-na-oboronu-v-2023-godu-mogut-prevysit-rossijskie-v-16-raz/

Əsgər sayına görə dünyanın ikinci böyük ordusuna sahib olan Hindistan da hərbi gücünü artıran digər Asiya ölkəsidir. Müqayisə üçün qeyd edək ki, rəsmi Dehli 2012-ci ildən sonra hərbi büdcəsini 33 % artırıb.[8]

Rusiya-Ukrayna müharibəsinin təsiri ilə hərbi büdcəsini artıran ölkələrdən biri də Yaponiyadır. Yaponiya hökuməti qarşıdakı beş ildə əlavə 320 milyard dollar məbləğində hərbi xərclər nəzərdə tutur. Bütövlükdə, Yaponiya 2027-ci ilədək hərbi xərcləri 2 %-dək artırmağı planlaşdırır. Hərbi xərclərini artıran Yaponiya hazırda hərbi büdcəsinə görə ABŞ və Çindən sonra üçüncü sırada dayanır.

Beləliklə, həm ümumilikdə, həm də ayrı-ayrı dövlətlərin nümunəsindən göründüyü kimi, hərbi güc amilinin öneminin artması xüsusilə son on ildə beynəlxalq münasibətlərin əsas tendensiyalarından birinə çevrilib. Dövlətlərin son illərdə hərbi gücünü artırmaq siyasətini vacib prioritetlərdən biri kimi qəbul etməsinin əsas səbəbi qlobal və regional səviyyədə cərəyan edən yeni geosiyasi proseslərdir. Yeni geosiyasi proseslər dedikdə, post-soyuq müharibə dövrünün başa çatması və yeni dünya nizamı quruculuğu nəzərdə tutulur. Artıq beynəlxalq münasibətlərin əsas aktorları da post-soyuq müharibə dövrünün başa çatdığını qəbul etdiklərini strateji sənədlərlə təsdiq edirlər. Belə ki, 2022-ci ilin oktyabrında Birləşmiş Ştatlar hökumətinin təsdiq etdiyi Milli Təhlükəsizlik Strategiyasında "post-soyuq müharibə dövrünün bitdiyi", "əsas güclər arasında rəqabətin getdiyi" aydın etiraf olunur.[9] Onu da əlavə edək ki, məlum sənəddə Çin və Rusiya dünya nizamına, o cümlədən də ABŞ-ın qlobal və regional maraqlarına ən böyük təhdid, çağırış kimi qəbul edilir. NATO-nun 2022-ci il iyunun 30-da keçirilən sammitində qəbul edilən Strateji Konsepsiyada da son illərdə dünyada və Avropada dəyişən strateji mühit, geosiyasi konyunktura, təhlükəsizlik risklərinin artması xüsusi qeyd olunur. Qeyd edək ki, Qərbin əsas hərbi-siyasi ittifaqının Strateji Sənədində də Rusiya Alyansın təhlükəsizliyinə, dəyərlərinə, mövcudluğuna, maraqlarına başlıca təhdid kimi, Çin isə çağırış olaraq dəyərləndirilir.[10] Strateji Konsepsiyada xüsusilə Rusiya-Ukrayna müharibəsinin doğurduğu nəticələrin Avro-Atlantik məkanda təhlükəsizlik risklərini xeyli artırdığı bildirilir. O da vurğulanmalıdır ki, yeni Strateji Konsepsiya strateji mühitin dəyişməsi, təhdidlərin artması ilə bağlı dəyərləndirməsinə və digər xüsusiyyətlərinə görə son 30 ildə qəbul edilmiş analoji sənədlərdən ciddi surətdə fərqlənir.

Hər iki sənəd əslində kollektiv Qərbin dəyişən dünya nizamına yanaşmasını, baxış bucağını ifadə edir. Məhz bu sənədlər həm də aparıcı və digər Qərb dövlətlərinin son illərdə hərbi büdcələrini, güclərini hansı səbəblərdən artırmasının məntiqini özündə ehtiva edir. Bir vacib məqamı da qeyd etmək lazımdır ki, Avropa İttifaqı ölkələri son 23 ildə dünyanın digər güc mərkəzləri olan ABŞ, Rusiya, Çin ilə müqayisədə hərbi xərclərini daha az artırıblar. Məsələn, 1999-cu ildən 2021-ci ilə qədər Aİ ölkələrinin ümumilikdə hərbi büdcəsi 20 % artdığı halda, bu rəqəm ABŞ-da 66%, Rusiyada 292 %, Çində 592 % olmuşdur.[11] Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra yaranan yeni təhlükəsizlik mühitinə görə Avropa ölkələri hərbi büdcələrini artırmaqla yanaşı, Avropa İttifaqının müstəqil müdafiə siyasətinə ehtiyacı olması ilə bağlı fikirlər xeyli aktuallaşmışdır. Hazırda "köhnə qitə"nin bir sıra siyasi-elmi dairələrində Aİ-nin NATO ilə bərabər, özünün müdafiə qabiliyyətinin artırması kontekstində geniş fikirlər yayılmaqdadır.

Əvvəldə də qeyd etdiyimiz kimi, Almaniya kimi İkinci Dünya Müharibəsinin məsuliyyətini üzərinə götürən və uzun müddət pasifist siyasət həyata keçirən dövlətlər belə Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra tamamilə yeni hərbi strategiya qəbul edirlər. Bu strategiyanın məqsədi ölkəni nəhəng iqtisadi güc olmaqla bərabər, həm də ciddi hərbi gücə çevirməkdir. Təbii ki, Almaniyanın yeni hərbi siyasətinin

---

[8] https://www.sipri.org/media/press-release/2022/world-military-expenditure-passes-2-trillion-first-time

[9] https://www.whitehouse.gov/wp-content/uploads/2022/10/Biden-Harris-Administrations-National-Security-Strategy-10.2022.pdf

[10] https://www.nato.int/strategic-concept/

[11] https://www.eeas.europa.eu/eeas/we-need-increase-european-defence-capabilities-working-better-together_en

təməlində dayanan əsas amil Rusiya təhdidinin artması ilə bağlıdırsa, digər məqam da almanların yeni dünya nizamı quruculuğunda fəal aktor kimi iştirak etmək istəyi ilə əlaqəlidir.

Eyni zamanda dünyanın digər iqtisadi-texnoloji nəhəngi olan Yaponiyanın da hərbi güc amilini aktuallaşdırması yerləşdiyi regionda və dünyada cərəyan edən geosiyasi proseslərlə, təhlükəsizlik risklərinin artması ilə birbaşa bağlıdır. Görünən odur ki, rəsmi Tokio mövcud regional geosiyasi konfiqurasiyada öz təhlükəsizliyini yalnız Birləşmiş Ştatlarla müttəfiqlik hesabına təmin etməyi yetərli saymır. Çinin geostrateji iddiaları fonunda artan hərbi gücü, Şimali Koreyadan intensivləşən təhdidlər, Rusiya ilə olan mürəkkəb münasibətlər, nəhayət, Ukraynada başlanan müharibə Yaponiyanın da hərbi-təhlükəsizlik doktrinasına yenidən baxmağa təşviq edir.

Qeyd olunduğu kimi, son 30 ildə hərbi büdcəsini, gücünü artıran böyük siyasi, iqtisadi, hərbi güclərdən biri də Çindir. Xüsusilə 2012-ci ildə Si Cinpinin hakimiyyətə gəlməsindən sonra Pekinin hərbi strategiyasında əsaslı dönüşü müşahidə etmək olar. Çinin yenidən böyük güc olması kimi "çinli arzusuna" malik olan Si Cinpin ölkəsinin hərbi gücünün artırılması məqsədi ilə islahatları sürətləndirdi. Si Cinpinə görə, onun iqtidarı Çinin 2049-cu ilə kimi Asiya-Sakit Okean regionunda dominant güc olan və qlobal müharibələrdə "döyüşüb qalib gələ bilən" dünya səviyyəli ordu yaratmaq öhdəliyini öz üzərinə götürüb.[12] Beləliklə, Çinin son illərdə hərbi qüdrətini artırmaq istiqamətində həyata keçirdiyi işlərin qısa təhlili bu strategiyanın Pekinin xarici siyasət məqsədlərinə yüksək səviyyədə xidmət etdiyi qənaətinə gəlməyimizə imkan verir.

Qərbin dominantlığına qarşı Çinin əsas tərəfdaşlarından biri hesab etdiyi Rusiya da son illərdə qəbul etdiyi hərbi-təhlükəsizlik doktrinasında hərbi gücünün artırılmasını əsas prioritetlərdən biri kimi qəbul edir. Moskva Ukraynaya hərbi müdaxiləsi səbəbindən üzləşdiyi ciddi iqtisadi, hərbi, resurs itkilərinə baxmayaraq bu ildə hərbi büdcəsini artırmaq siyasətindən çəkinmir. Bu amil də ilk növbədə dünyada cərəyan edən geosiyasi proseslərdən və Rusiyanın qlobal, regional (əsasən də postsovet məkanı) iddialarından qaynaqlanır.

Hərbi gücünü davamlı olaraq artıran və bununla da təhlükəsizlik qayğılarını azaltmağa çalışan ölkələrdən biri də Azərbaycandır. Təbii ki, ölkəmizin hərbi güc amilinə xüsusi önəm verməsi yerləşdiyimiz regionun mürəkkəb geosiyasi şərtləri, Ermənistanla hələ də həll olunmamış problemlərimizin qalmasıdır. Məhz bütün bu məqamları nəzərə alaraq, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da hər il hərbi büdcəsini artırmağa üstünlük verir.

Təhlildən göründüyü kimi, dövlətlərin hərbi güclərini, büdcələrini artırmaq siyasəti dünyada və ayrı-ayrı regionlarda cərəyan edən geosiyasi proseslərlə birbaşa bağlıdır. Qlobal və regional miqyasda cərəyan edən geosiyasi proseslərdə qarşıdurma meylləri uzlaşma meyllərini və yaxud əksinə, üstələyirsə, köklü təbəddülatlar baş verirsə, bu, ölkələrin hərbi doktrinasına da əhəmiyyətli təsir göstərir. Məsələn, 1990-cı illərdə, yəni soyuq müharibə başa çatdıqdan sonra Birləşmiş Ştatlar hərbi büdcəsini 35 % azaltmışdı.[13] Eyni zamanda NATO və Rusiya da hərbi xərclərini xeyli kiçiltmişdi. Son illərdə tərəflər arasında müşahidə olunan geosiyasi qarşıdurma meyllərinin güclənməsi, yeni dünya nizamının formalaşması, xaotik proseslərin baş verməsi fonunda dünya ölkələrinin hərbi güclərini artırmaq strategiyasını beynəlxalq münasibətlərin və bütövlükdə siyasətin təbiətinə uyğun hesab etmək olar.

***Müəllif: Mətin Məmmədli, Aparıcı məsləhətçi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi***

[12] http://www.xinhuanet.com/english/download/Xi_Jinping's_report_at_19th_CPC_National_Congress.pdf

[13] https://ota.fas.org/reports/9202.pdf